**“Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 noyabr tarixli 1836 nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Dövlət Proqramının aidiyyəti bəndləri üzrə 2014-cü il üzrə Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat**

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| 1.5. | Yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması və xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi. | Yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması və xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi ilə əlaqədar aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarından təkliflər daxil olduğu halda həmin təkliflərə müvafiq qaydada münasibət bildiriləcəkdir. | 2011-2015 |
| 1.8. | Sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi | Sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində Vergilər Nazirliyi tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi 2014-cü ildə davam etdirilmişdir. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının ASAN xidmət mərkəzləri vasitəsilə də aparılması təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının icrası ilə bağlı son illərdə biznesin qeydiyyatı sahəsində aparılan islahatlar öz bəhrəsini verməkdədir.<br>Fərdi sahibkarların e-qeydiyyat sistemi vasitəsilə 2014-cü il ərzində fiziki şəxslərin vergi uçotuna alınması təmin edilmiş və cari ilin sonuna ümumilikdə 82726 fərdi sahibkar elekron qaydada qeydiyyata alınmışdır.<br>Eyni zamanda, 2012-ci ildən ölkədə tətbiq edilən kommersiya hüquqi şəxslərin e-qeydiyyat sistemi vasitəsilə ümumilikdə 7045 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alınmışdır. E-qeydiyyatın tətbiqi yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər üçün qeydiyyatın əvvəlki prosedurlara olan tələblərini aradan qaldırmış, nəticədə ölkədə biznesə başlama prosedurlarının sayı 6-dan 3-ə və sərf edilən müddət 8 gündən 5 günə enmişdir.<br>2014-cü il ərzində Azərbaycan Respublikasında dövlət qeydiyyatına | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
| --- | --- | --- | --- |
| | | alınmış 7162 hüquqi şəxsdən 2809-u və ya 39,2 faizi elektron qeydiyyatdan keçmişdir. Qeydiyyat proseslərinin sadəliyini əks etdirən icmal məlumat və statistik rəqəmlər Vergilər Nazirliyinin internet səhifəsində yerləşdirilmiş və “Doing Business” hesabatının inzibatçılarına təqdim edilmişdir. Görülmüş tədbirlər biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business 2015" reytinq hesabatında Azərbaycan Respublikası əvvəlki hesabatda olduğu kimi, “Biznesə başlama” indikatorunda yüksək mövqeyini qoruyaraq 189 ölkə arasında 12-ci olmuşdur.<br>Eyni zamanda, hesabatda Azərbaycan Respublikasının “Vergilərin ödənişi” indikatorunda mövqeyi 32 pillə yaxşılaşaraq 33-cü yerə yüksəlmişdir. 2015-ci il üçün bəyannamələrin doldurulması və vergilərin ödənilməsinə sərf olunan illik vaxt (saat) indikatoru 2007-ci ilə nisbətən 5,1 dəfə azalaraq 1000 saatdan 195 saata, ödəmələr (illik sayı) indikatoru 5,2 dəfə azalaraq 37-dən 7-yə düşmüşdür.<br>Vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi daha da genişləndirilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmətlərin siyahısı”na daxil edilmiş elektron xidmətlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə “Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı”, “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı”, “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması”, “ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi”, “Vergi partnyorluğu Sazişinin bağlanması üçün ərizələrin qəbulu”, “Cari vergi ödəmələrinin hesablanması haqqında Arayışın təqdim edilməsi” və “Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc edilməsi ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi” kimi daha 7 elektron xidmətlər üzrə müvafiq proqram təminatları hazırlanaraq istifadəyə verilmişdir. Vergilər Nazirliyinin Kollegiyasının müvafiq Qərarı ilə “Vergi partnyorluğu Sazişinin bağlanması üçün ərizələrin qəbulu”, “Cari vergi | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | ödəmələrinin hesablanması haqqında Arayışın təqdim edilməsi” və “Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc edilməsi ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi” elektron xidmətləri üzrə inzibati reqlamentlər təsdiq edilmiş və 30 aprel 2014-cü il tarixdə 15201404222400 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>Eyni zamanda “Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı”, “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı”, “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması” və “ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi” xidmətləri üzrə inzibati reqlamentlər təsdiq edilmiş və 17 sentyabr 2014-cü il tarixdə 15201409034800 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>İnternet üzərindən vergi ödəyicilərinə fəaliyyətlərinin dayandırılması barədə arayışın əldə edilməsi, kommersiya hüquqi şəxsin adının bron (rezerv) edilməsi imkanlarının yaradılması üzrə müvafiq proqram təminatı hazırlanaraq istismara verilmiş, “Fəaliyyətinə xitam verilmiş fiziki şəxsin fəaliyyətinin bərpa edilməsi” və “Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında” ərizələrin isə elektron şəkildə vergi orqanına təqdim edilməsi məsələsi üzərində işlər yerinə yetirilir. . | |
| 1.9. | Ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi | Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması üzrə operativ nəzarət strukturları tərəfindən həyata keçirilən nəzarət tədbirlərinin daha da gücləndirilməsi və bu tədbirlərin səmərəliliyinin yüksəldilməsi barədə Vergilər Nazirliyinin mərkəzi aparatı tərəfindən Naxçıvan MR Vergilər Nazirliyinə və aidiyyəti vergi orqanlarına müvafiq tapşırıq verilmişdir.<br>Hesabat ilində vergi orqanında uçota durmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının aşkar edilməsi məsələsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirlərinin nəticələri barədə 2653 akt tərtib | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | olunmuşdur. Tərtib olunmuş aktlara əsasən qanun pozuntusuna yol vermiş şəxslərə 101,4 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>“Fərqlənmə nişanı” almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə aparılmış operativ nəzarət tədbirləri nəticəsində 2768 şəxsin “Fərqlənmə nişanı”nı almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti göstərməsi faktı aşkar edilmiş, həmin şəxslər barəsində 107,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində operativ vergi nəzarəti həyata keçirilmiş 7568 obyektin hamısında qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. Nəzarətin nəticələrinə görə aşkar olunmuş qanun pozuntuları barədə tərtib olunmuş materiallar baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.<br>2014-cü il ərzində 11520 vergi ödəyicisində səyyar vergi yoxlamaları başa çatdırılmış, bu yoxlamalar zamanı 408 vergi ödəyicisinin qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkar edilərək barələrində qanunamüvafiq tədbirlər görülmüşdür.<br>Vergilər Nazirliyinin aidiyyəti strukturunda icraatda olan material, müraciət, məlumat və cinayət işlərinin araşdırılması, habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının müəyyən edilməsi və qarşısının alınması istiqamətində qanunamüvafiq tədbirlərin görülməsinə daim təhqiqat, istintaq və əməliyyat işçilərinin diqqəti cəlb olunur.<br>Daxil olmuş məlumat və materiallar üzrə qanunsuz sahibkarlıq faktları ilə bağlı 2014-cü ildə 57 cinayət işi başlanmış, il ərzində onlardan 21 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, 5 işin icraatına bəraətverici əsaslar olmadan xitam verilmişdir.<br>2014-cü ildə icraatda olmuş aşağıdakı cinayət işləri üzrə 21 nəfər şəxs barəsində baxılması üçün məhkəmələrə göndərilmişdir. | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | Qanunsuz sahibkarlıq faktları üzrə 2014-cü ildə icraatda olmuş 5 cinayət işin icraatına bəraətverici əsaslar olmadan xitam verilmişdir.<br>Bundan başqa, hesabat ilində aksiz markaları ilə markalanmalı olan məhsulları (malları), belə marka olmadan satış məqsədi ilə saxlama faktları ilə bağlı daxil olmuş materiallar üzrə CM-nin 213-1-ci maddəsi ilə 6 cinayət işi başlanmışdır. Hesabat dövründə göstərilən faktlarla bağlı 2 nəfər şəxs barəsində 2 iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, digər işlər üzrə ibtidai istintaq davam etdirilir.<br>Saxta aksiz markalarını satış məqsədilə əldə etmə faktı ilə bağlı daxil olmuş 1 iş üzrə CM-nin 205-1-ci maddəsi ilə cinayət işi başlanmış və hesabat dövründə həmin işin istintaqı tamamlanaraq məhkəməyə göndərilmişdir.<br>Hesabat ilində qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının keçirilməsi faktları ilə bağlı daxil olmuş materiallar üzrə CM-nin 192-1.2-ci maddəsi ilə 4 cinayət işi başlanmış, göstərilən faktlarla bağlı 1 nəfər şəxs barəsində 1 iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, digər işlər üzrə ibtidai istintaq davam etdirilir. | |
| 1.11 | Sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə kompyuter terminalları şəbəkəsinin genişləndirilməsi | Sahibkarlıqla məşğul olan şəxslərin məlumatlandırılması və vergi öhdəliklərinin yerinə yetirilməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə Vergilər Nazirliyi tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi 2014-cü ildə davam etdirilmişdir. Noyabr ayının 3-də Sabunçu rayonunun Bakıxanov qəsəbəsində Bakı Vergilər Departamentinin yeni Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilmiş və burada göstərilən xidmətlərdən vergi ödəyicilərinin faydalanması üçün müvafiq şərait yaradılmışdır.<br>Respublikada fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinin funksional imkanlarının genişləndirilməsi məqsədilə 7 xidmət mərkəzində cari təmir işləri aparılmış, 14 xidmət mərkəzi yeni mebellərlə təmin edilmiş, 9 xidmət mərkəzində texniki tədbirlər görülərək növbə və qeydiyyat aparatları, səsyazma və video müşahidə qurğularının, kompüter avadanlıqlarının quraşdırılması təmin edilmişdir.<br>2014-cü il ərzində vergi ödəyicilərinə xidmət strukturları tərəfindən 301192 | 2011-2015 |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | vergi ödəyicisi qəbul edilmiş və onlara 395645 sayda müxtəlif növ vergi xidmətləri göstərilmişdir. Göstərilən xidmətlərin 106104-ü elektron, 92636-sı şifahi, 74143-ü yazılı (kağız daşıyıcısında) müraciətlərin qəbulu, 60025-i hazır sənədlərin təhvil verilməsi, 25782-i vergilərə aid ərizə, hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi, 2729-u bəyannamələrin, hesabatların, arayışların və digər sənədlərin qəbulu üzrə xidmətlər olmuş, 1548 halda vergi ödəyiciləri Xidmət mərkəzlərində quraşdırılmış özünəxidmət komputerlərindən istifadə etməklə müxtəlif xidmətlərdən yararlanmışlar.<br>Hesabat dövründə vergi ödəyicilərinə xidmət sturukturları tərəfindən vergi ödəyiciləri ilə 1179 görüş keçirilmişdir. 2013-cü illə müqayisədə keçirilmiş görüşlərin sayı 40,4 faiz artmışdır. Hesabat dövründə bələdiyyələrlə 544, şagird və tələbələrlə 453, “Vergi dostları” ilə 115, orta ümumtəhsil məktəblərində təşkil edilmiş metodiki kabinetlərdə 81 görüş keçirilmiş, 20506 vergi ödəyicisinə ünvanlı (səyyar) məlumatlandırma xidməti göstərilmişdir (2013-cü illə müqayisədə 62,9 faiz çox).<br>Əmək Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı müvafiq bildirişin elektron informasiya sistemində qeydiyyata alınması barədə vergi ödəyicilərinə 90666 xəbərdarlıq məktubu göndərilmiş, nazirliyin internet səhifəsində əmək müqaviləsinin (kontraktının) nümunəvi forması, mobil elektron imza - “ASAN İmza” vasitəsilə Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması barədə təlimat yerləşdirilmişdir. Vergi ödəyicilərinə əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinin Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olması barədə ətraflı məlumat verilmişdir.<br>Eyni zamanda “Siz, Görünmürsünüz” və “Özünü əvvəlcədən qoru - müqavilə bağla!” adlı əmək müqaviləsininin bağlanmasını təbliğ edən sosisal video çarxlar hazırlanaraq “Facebook” sosial şəbəkəsində yayımlanmış, Bakı şəhəri və regionlarda yol kənarlarında “Əmək müqaviləsi ilə böyüyən imkanlar” | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | və “İşə qəbul olunarkən əmək müqaviləsini tələb edin!” mətnlərində sosial reklamlar yerləşdirilmiş və bu proses davam etdirilir.<br>“Vergi partnyorluğu Sazişi”nin əhəmiyyəti, bağlanmasının zəruriliyi barədə vergi ödəyicilərinə bildirişlər göndərilmiş, bu mövzuda görüşlər keçirilmiş, ünvanlı xidmətlər göstərilmişdir. Eyni zamanda İnternet Vergi idarəsində “Vergi partnyorluğu Sazişinin bağlanılması üçün ərizələrin qəbulu” elektron xidmətindən istifadə imkanı yaradılmışdır.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün “Onlayn bələdçi” xidməti istifadəyə verilmişdir. Bu xidmət vasitəsilə internet səhifəsində məlumatların tapılmasında çətinlik çəkən istifadəçilərə müvafiq linkin təqdim edilməsi həyata keçirilir.<br>“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarlığın maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar rəsmi internet səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamentini, onların hüquqi əsasları barədə dolğun məlumatı əks etdirən “Vergi yoxlamaları: əsaslar və prosedurlar” bölməsi yaradılmış və həmin bölmədə müvafiq sənədlər, vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə bildiriş-məlumatlar yerləşdirilmişdir.<br>Vergilər Nazirliyinin internet səhifəsində “Borclu vergi ödəyiciləri barədə məlumat” bölməsi yaradılmış, “Qanunvericilik” altbölmələri, “ASAN-imza” bölməsi yenilənmiş və həmin bölmədə müvafiq sənədlər yerləşdirilmişdir. “Sual-cavab” bölməsində yerləşdirilən suallara cavabların qiymətləndirilməsi mexanizmi yaradılmışdır.<br>Görülmüş işlərin nəticəsi olaraq Multimedia Mərkəzi tərəfindən ictimai informasiya subyektlərinin (dövlət orqanları və bələdiyyələrin) rəsmi internet resurslarının monitorinqinin nəticələrinə görə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi ardıcıl olaraq 6 il birinci yerə layiq görülmüşdür.<br>2014-cü il ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olanların sayı 3285007 olmuşdur.<br>Qeyd olunan dövr ərzində internet səhifəsinin “Sual-cavab” bölməsinə | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | 1414 müraciət daxil olmuş və onların 85 faizi qısa müddət (1-5 gün) ərzində cavablandırılmışdır.<br>Vergi ödəyicilərinə xidmət mərkəzlərində və 195 Çağrı Mərkəzində göstərilən xidmətin səviyyəsinin və keyfiyyətinin müəyyən edilməsi və ölçülməsi məqsədi ilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Birlikdə daha yaxşı olaq!", "Vergi məsələləri, o cümlədən vergi bəyannamələrinin hazırlanması və vergi orqanına göndərilməsi ilə bağlı hara müraciət edirsiniz?" və "Alış-veriş zamanı POS-terminaldan istifadə edirsinizmi?" mövzuları üzrə sorğular keçirilmişdir.<br>Vergilər Nazirliyinin "Facebook" və "Twitter" sosial şəbəkələrindəki rəsmi səhifələrində, "Youtube" video hostinq serverində və www.video.az saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir. Nazirliyin "Facebook" sosial şəbəkəsindəki səhifəsində "FACE-Vizit" layihəsi davam etdirilmişdir.<br>Canlı rejimdə fəaliyyət zamanı 177365 müraciət müfəttiş-operatorlar tərəfindən cavablandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ili müqayisədə 8,4 faiz çoxdur.<br>Çağrı Mərkəzi tərəfindən gücləndirilmiş elektron imzaya dair 19711, o cümlədən ASAN imzaya dair 19538 müraciətin cavablandırılması təmin edilmişdir.<br>Hesabat dövründə vergi ödəyiciləri 1537494 sayda mesaj xidməti vasitəsilə məlumatlandırılmışdır.<br>ASAN imzanın da imkanlarından istifadə etməklə Çağrı Mərkəzində ASAN imza vasitəsilə əməliyyatların aparılması layihəsi başlanılmış və 2014-cü ilin oktyabr ayından etibarən I, II, III rüblər üzrə Sadələşdirilmiş vergi bəyannamələrini Çağrı Mərkəzinə zəng etməklə təqdim etmək xidməti istifadəyə verilmişdir.<br>Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişikliklər edilmiş və Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmət növləri siyahısına daha 3 elektron xidmətləri əlavə edilərək elektron xidmətlərin | |

| № | Tədbirin adı | Görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | ümumi sayı 60-a çatdırılmışdır.<br>Bununla belə, vergilər nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az) vasitəsilə xidmət mərkəzlərinə onlayn növbəyə yazılmaq imkanının yaradılması ilə əlaqədar müvafiq işlər görülmüş və xidmət mərkəzində quraşdırılmış “AKİS” sisteminin yerləşdiyi server ilə internet səhifəsinin yerləşdiyi server arasında bağlantının qurulması ilə bağlı işlər davam etdirilmişdir.<br>Vergi ödəyiciləri tərəfindən təqdim edilən bəyannamələrin tərtib edilməsinə sərf edilən vaxtın minimallaşdırılması və asanlaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir.<br>Vergi orqanları tərəfindən əvvəlcədən doldurulmuş vergi bəyannamələri sisteminin tətbiqi istiqamətində ilkin addımlardan biri kimi İnternet Vergi İdarəsində Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) proqramı yaradılaraq vergi ödəyicilərinin istifadəsinə verilmişdir. Hazırda Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) proqramı vasitəsilə vergi ödəyicilərinə Torpaq və Yol vergisi üzrə cari bəyannamələrini əvvəlki dövr bəyannamə göstəriciləri əsasında avtomatlaşdırılmış formada tərtib etmək və onlayn təqdim etmək üçün onlara lazımi imkanlar yaradılmışdır. | |